# Adil Həsənli



**Adil Həsənli redaksiyamızla müntəzəm əlaqə saxlayan, bu və ya digər elmi-metodiki yazılara öz münasibətini səmimi şəkildə bildirən fəal oxucularımızdandır. O, həm də duyğularını şeirin dili ilə izhar edən poeziya həvəskarıdır.**

## Ay vətən oğlu

Dağılıb yurdumuz, obalarımız,
Oyan bu qəflətdən, ay vətən oğlu!
Yad əldədir şəhərimiz, kəndimiz,
Oyan bu qəflətdən, ay vətən oğlu!

Azad deyil torpağımız, daşımız,
Açılmır bəladan nədən başımız,
Qan ağlayır Laçınımız, Şuşamız,
Oyan bu qəflətdən, ay vətən oğlu!

Damarında Babəklərin qanı var,
Nəbilərin igid adı, sanı var,
Hər işin öz məqamı var, anı var,
Oyan bu qəflətdən, ay vətən oğlu!

Koroğlu cəngisi çalmaq vaxtıdır,
Düşməndən intiqam almaq vaxtıdır,
Üçrəngli bayrağı asmaq vaxtıdır,
Oyan bu qəflətdən, ay vətən oğlu!

Adil Həsənliyəm, dərdim böyükdür,
Axı torpaqlarım bölük-bölükdür,
Artıq buna dözmək təhqir, söyüşdür,
Oyan bu qəflətdən, ay vətən oğlu!

## Doğma Yusifcanlım

Gözlərimi açdım səndə,
Boy atdım cənnət sinəndə,
Üzüm gülüb, sən güləndə,
Sənsən mənim xoş xəyalım,
Mənim doğma Yusifcanlım!

Mənim adım, sanım sənsən,
Damarımda qanım sənsən,
Qibləgahım, andım sənsən,
Sənsən mənim arım, balım,
Mənim doğma Yusifcanlım!

Torpağında izim qalıb,
Bağ-bağçanda gözüm qalıb,
Ürəyimdə sözüm qalıb,
Sənsən mənim ilk baharım,
Mənim doğma Yusifcanlım!

Qan ağlayır Yataqtəpəm,
Qəribsəyib Ocaqdərəm,
Övladların düşüb pərən,
Olarmı heç səni danım,
Mənim doğma Yusifcanlım!

Keçər dövran belə qalmaz,
Qisasımız yerdə qalmaz,
Doğma diyar belə qalmaz,
Fəda olsun sənə canım,
Mənim doğma Yusifcanlım!

Adil sənsiz gülə bilməz,
Göz yaşını silə bilməz,
Dərd-sərini bölə bilməz,
Sənsən mənim qeyrət, qanım,
Mənim doğma Yusifcanlım!

## Haqqı unutmayaq

Haqdan, ədalətdən hey danışsaq da,
Yaman unuduruq bəzən biz haqqı.
Namusdan, qeyrətdən hey danışsaq da,
Yaman unuduruq bəzən biz haqqı.

Yanlış edib səhv addımlar atırıq,
Böhtan deyib, günahlara batırıq,
Uyub şeytanlara haqqı danırıq,
Yaman unuduruq bəzən biz haqqı.

Gündüz mələk donu geyib gəzirik,
Gecə oğru olub biz cib kəsirik,
Hətta cəllad sayaq baş da əzirik,
Yaman unuduruq bəzən biz haqqı.

Təmiz, pak yaradıb bizi yaradan,
Götürsün o özü şəri aradan,
Gəlin, seçək hər bir haqqı-nahaqdan,
Yaman unuduruq bəzən biz haqqı.

Ulu Tanrım, ucalardan ucasan,
Sən yaradan, həm də bağışlayansan.
Biz düz olsaq, sən də alqışlayarsan
Yaman unuduruq bəzən biz haqqı.

Adil, çalış ululardan ulu ol,
Bu dünyanı yaradanın qulu ol,
Haqqın, əyilməyən güclü qolu ol,
Yaman unuduruq bəzən biz haqqı...

*Ağdam*